# On ili illərə bağlayacaq strateji enerji xətti: TANAP

**Azərbaycan regionda və beynəlxalq aləmdə öz sözünü deyən, mühüm layihələrə ev sahibliyi edən strateji əhəmiyyətə malik dövlətə çevrilib. Bu uğurun təməlində şübhəsiz ki, ölkə rəhbərinin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət dayanır. Dövlət başçımızın siyasi iradəsi və strateji baxışı sayəsində Azərbaycan regional, eyni zamanda qlobal aktora çevrilərək dünya iqtisadiyyatı və enerji bazarında əhəmiyyətli rol oynayır. Ölkə başçımız XII Qlobal Bakı Forumunun açılışında bu barədə deyib: "Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir".**

Azərbaycanın dünya enerji sektorunda qlobal gücə çevrilməsinin əsası 1994-cü il sentyabrın 20-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə imzalanan "Əsrin müqaviləsi" ilə qoyuldu. Bu tarixi saziş "Azəri-Çıraq-Günəşli" (AÇG) neft yataqlarının işlənməsi üçün dünyanın aparıcı neft şirkətləri ilə imzalanaraq ölkəyə milyardlarla dollar sərmayə gətirdi. Bu layihənin icrası nəticəsində ölkənin iqtisadi inkişafı sürətləndi, neft hasilatı artdı, Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) boru kəmərləri reallaşdı. "Əsrin müqaviləsi" Azərbaycanın enerji ixracını şaxələndirərək ölkənin geosiyasi mövqeyini möhkəmləndirdi.

Prezident İlham Əliyevin liderliyi ilə 2017-ci ildə müqavilənin müddəti 2050-ci ilə qədər uzadıldı. "Əsrin müqaviləsi" ölkəmizin davamlı inkişafına və enerji təhlükəsizliyinə xidmət edən tarixi uğur kimi qiymətləndirilir. Azərbaycanın həyata keçirdiyi enerji və nəqliyyat layihələri bütün regionun gələcəyini formalaşdıran əsas sütunlardandır. Xüsusilə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Cənub Qaz Dəhlizi və onun əsas hissəsi olan TAP və TANAP Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır və ölkəmizi etibarlı tərəfdaş kimi qlobal enerji bazarında ön plana çıxarır.

Ölkəmizin enerji siyasətinin uğurlarını dəyərləndirmək üçün həyata keçirilmiş əsas layihələrə nəzər salmaq kifayətdir. Belə ki, enerji sektorunda dönüş nöqtəsi hesab edilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri 2006-cı ildə istifadəyə verildi. Bu layihə Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında mühüm rol oynamaqla yanaşı, regionun enerji xəritəsini dəyişdi. BTC-nin istismara verilməsi ilə Azərbaycan nefti ilk dəfə Qərb bazarlarına daha təhlükəsiz və səmərəli şəkildə nəql olunmağa başladı. 2007-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri isə Azərbaycanın qaz ixrac imkanlarını genişləndirdi. Bu boru kəməri "Şahdəniz" qaz-kondensat yatağından çıxarılan qazın Türkiyəyə və oradan Avropa bazarına çatdırılmasını təmin etdi. Bununla da Azərbaycan, təkcə neft deyil, həm də qaz ixracatçısı kimi strateji mövqeyini möhkəmləndirdi. Enerji sektorunda beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq Memorandumu imzalandı. Bu sənəd Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini təsdiqlədi və ölkəmizin enerji resurslarının şaxələndirilməsi siyasətinə böyük töhfə verdi.

Strateji tərəfdaşlıqların qurulması Azərbaycanın enerji siyasətinin əsas istiqamətləridir. Bu siyasətin ən mühüm nailiyyətlərindən biri Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsidir. TANAP təkcə Azərbaycan qazının Avropaya nəqlini təmin etmir, həm də ölkəmizin qlobal enerji təhlükəsizliyindəki rolunu gücləndirir. Layihənin əsası 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətində qoyulmuşdur. 2018-ci ildə TANAP-ın Türkiyə hissəsinin istismara verilməsi ilə layihə tam reallaşdırılmalı idi. Lakin həmin dövrdə Gürcüstandakı daxili sabitliyin pozulması üçüncü tərəfdaş kimi prosesə təsir edərək qaz kəmərinin nəzərdə tutulan vaxtdan bir il gec açılmasına səbəb oldu. Nəticədə 2019-cu il noyabrın 30-da TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi təşkil edildi. Avropaya ilk təbii qaz 2020-ci il dekabrın 31-də nəql edildi. Cənub Qaz Dəhlizinin əsas seqmenti sayılan 1850 kilometr uzunluğunda olan Trans-Anadolu Qaz Boru Kəməri Türkiyə ərazisindən keçərək "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyə və Avropa istehlakçılarına çatdırır. Həmçinin qeyd etmək lazımdır ki, TANAP layihəsində "Cənub Qaz Dəhlizi" QSC 51 faiz, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki törəməsi "SOCAR Turkey Enerji A.Ş" 7 faiz, BOTAŞ 30 faiz, bp 12 faiz paya malikdir.

2023-cü ildə xaricə qaz satışı 23,8 milyard kubmetr təşkil edib ki, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz çoxdur. Avropaya 11,8 milyard, Türkiyəyə 9,5 milyard, Gürcüstana isə 2,5 milyard kubmetr qaz satılıb. Türkiyəyə isə TANAP-la bu müddətdə 5,6 milyard kubmetr qaz nəql olunub.

TANAP-ın təməlinin qoyulması münasibətilə keçirilən təntənəli mərasimdə 2026-cı ildə boru kəmərinin ötürmə gücünün 31 milyard kubmetrə çatdırılacağı bildirilmişdi. Rəsmi məlumatlara görə, 2024-cü il dekabrın 31-dək TANAP vasitəsilə nəql edilən qazın ümumi həcmi 73,54 milyard kubmetr təşkil edib. Bu, Azərbaycanın regionda və Avropada enerji təhlükəsizliyinin əsas təminatçılarından biri olduğunu sübut edir.

Ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş rolunu oynayır. Azərbaycanın TANAP vasitəsilə Avropaya qaz ixrac etməsi regionda geosiyasi tarazlığı dəyişib. 2023-cü ilin statistik göstəricilərinə əsasən, Azərbaycan Avropaya 12 milyard kubmetrdən çox qaz ixrac edib və bu rəqəmin 2026-ci ilə qədər 31 milyard kubmetrə çatdırılması planlaşdırılır. Bu, Azərbaycanın təkcə enerji ixrac edən ölkə deyil, həm də enerji təhlükəsizliyinin təminatçısıdır.

TANAP layihəsinin təməlinin qoyulmasından artıq on il keçib. Bu, ölkəmizin ən böyük enerji uğurlarından biridir və Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. TANAP qaz kəməri Azərbaycan qazını Gürcüstan vasitəsilə Türkiyə-Yunanıstan sərhədinə çatdırır. Buradan isə Trans-Adriatik Boru Kəməri ilə (TAP) Azərbaycan qazı Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyaya nəql olunur. Bu layihələr həm Azərbaycanın enerji siyasətini möhkəmləndirir, həm də ölkəmizi Avropanın etibarlı enerji təminatçısı olaraq tanıdır.

Bu nəhəng layihələrin reallaşdırılması Prezident İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə mümkün olub. Azərbaycan enerji təhlükəsizliyini təmin etmək və qlobal enerji bazarında mövqeyini gücləndirmək məqsədilə ciddi addımlar atıb. TANAP və TAP layihələri Azərbaycanı Cənubi Qafqazın ən mühüm enerji mərkəzlərindən birinə çevirib. Bu layihələrin reallaşdırılması ilə Azərbaycanın qaz ixracatının şaxələndirilməsi və beynəlxalq enerji bazarlarında daha geniş mövqeyə sahib olması təmin edilib. TANAP layihəsi Azərbaycanın enerji diplomatiyasının ən mühüm uğurlarından biri olaraq tarixə düşüb.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**